MƏHƏMMƏD HADİ YARADICILIĞINDA TOLERANTLIQ

“Azərbaycan romantizminin təşəkkül tapib inkişaf etməsində və dünya romantizmi ilə qovuşmasında başlıca simalardan biri” olan Məhəmməd Hadi yaradıcılığında tolerantlıq, fərqli düşüncə və əqidələrə qarşı dözümlü münasibətin inikası müasir dünyada ən çox müzakirə edilən mövzularından biri kimi bəşəriyyətqarşısında duran mühüm məsələlərdəndir.

İslam dünyası dini və mədəni rəngarənglik baxımından dünyanın öncüllər sırasında olmuş (xiristianlıq, yəhudlik, zərdüştlik, hinduizm və s.), islam- irfan mütəfəkkirləri tolerantlıq ənənəsinin nəzəri əsaslarını hazırlayaraq bütün dinlərin əsas məqsədinin insanları ilahi qüvvəyə inama və ona ibadətə çağırmaqdan ibarət olduğunu açıqlamışlar. Mahatma Qandinin fikrinə görə, “günümüzün ehtiyacı yalnız bir din deyil, müxtəlif dinlərin tərəfdarlarına qarşı qarşılıqlı hörmət və dözümlülükdürsə”, sufi mütəfəkkiri Mövlana Cəlaləddin Rumidə bu həqiqət “mömin də Uca Padşaha (Allaha) yönəlir, xristian da, yəhudi də, məcusi də. Hətta daş, torpaq, dağ və suyun belə Tanrıya gizli bir duası vardır” fikri ilə tamamlanır.

“Gördüyümüz və bildiyimiz məzhəblər və dinlər miyanında ən hürriyyətpərvər, ən müsavatpərəst,ən ədalətli bir din varsa, o da dini- islamdır”- düşüncəsində olan, “məqalələrində şəxsiyyət və mətbuat azadlığı, dil, elm və maarif, islam dini, ədəbiyyatın vəzifələri kimi müxtəlif sahələrdən bəhs edən” M.Hadi yaradıcılığı həmçinin islam dini konstruksiyasına əsaslanaraq ilk növbədə insan azadlığı və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibəti birləşdirir. O, Quranın “İsra” və “Bəqərə” surələrinin 30, 70, 84-cü ayələrinə istinadən İslam dininə görə “hər kəs həddi-zatında hürriyyəti-şəxsiyyəyə malik olub, hər biri bir xəlifəyi- müstəqiləyi-ilahidir. Kimsə kimsəyə qul deyildir, əbd deyildir. Heç kəs əsir deyil, hər adam bir xəlifəyi -hürrdür. Dünya sədəfində hər adəm oğlu bir dürri -yektabdır” -fikirləri ilə tolerantlığı islamın önəmli prinsipi kimi şərh edir. Qurani -Kərimin “əl-Bəqərə surəsinin 256-cı ayəsi “dində məcburiyyət yoxdur” lakonik olaraq dini dözümlülüyü ortaya qoymuş, müsəmanları tolerant olmağa, zorakılıqdan qacmağa, insanları inanclarında sərbəst buraxmağa əmr etmişdir.Allahın Həzrət Məhəmmədə(s) “Yunus” surəsinin 99- cu ayəsində “İnsanlara iman gətirməyə sənmi məcbur edəcəksən” bildirişi islam dininin insan azadlığını bir daha təsdiqlədiyinin sübutudur.

Müqəddəs kitabı örnək alan M.Hadi yaradıcılığında tolerantlıq -güclü qarşısında dözümlü olmaq deyil, daha çox başqalarının haqqına və hüquqlarına hörmət prinsipini irəli sürür. M.Hadi islam konstruksiyasında münasibət bildirdiyi dinlərə, ən mühümü isə bu dinlərin daşıyıcısı olan insana, “ ... islamiyyət ... adam əlindən ixtiyar almaz, adamı əsir qılmaz, biləks, adam övladına hürriyyət, azadlıq bəxş edər” kimi ideyalarla əsas məqsədini, azad insan konsepsiyasını irəli sürür. M.Hadi fəlsəfi axtarışlar arasında klassik vəhdəti İslam dininə, Qurana bağlayır, onun üzvi sintezi ilə bərabərlik, azadlıq və hürriyyəti elm, sivilizasiya ilə bütövlükdə, Şərq intibahının ruhunda və mahiyyətində tamamlayır. Onun yaradıcılığında ayrı-ayrı milli dəyər və mədəniyyətlər arasında müxtəliflik hər yerdə ali- ilahi qanunauyğunluğun, Allahın şah əsəri olan insanın təhlilində sənətkarlıqla əks olunur. O, dinə əsaslanmaqla insanları, müsəlman qardaşlarını “bir cism və bir bədən mənziləsində” hesab edir, eyni zamanda “ missionerlərin “İncilə” və öz dindaşlarına göstərdiyi qayğıdan ibrət dərsi götürüb millət və tərəqqipərvər dinimiz olan İslam dini ugrunda mubarizə” aparmalarını, digər dinlərin əqidə tamlığını, humanizm ideyalarını kənara atmır. M.Hadi “ Təzə həyat” qəzetinin 30 aprel, 6, 7 may 1908-ci il , 97, 101,102 nömrələrində dərc etdirdiyi “Budda kimdir?” əsərində dinindən, irqindən, millətindən aslı olmayaraq insanın , Buddizm dininin yaradıcısının həyat yolu araşdırılır. Məqalədə bu dinin fəlsəfi mahiyyəti izah olunmaqla yanaşı öz məxsusi “mən”i ilə insanın döğru, dürüst təkamülü islam etiqatlarının estetik fenomeninə daxil olur:

“Birinci maddə - Ruhun şövq və şətarəti, ayrı bir ibarətlə inbisati-ruhiyyə, inşirahi- vicdaniyyə.

İkinci maddə- Övham və xəyalati-fasidədən təsfiyəyi-lövhi-dərun etməklə bərabər əfkari-intiqami-cuyanədən vaz keçmək.

Üçüncü maddə - İnsanda qinaəti-vicdaniyyə olub fikri-tərəddüd olmamaq, qeyz və hirsdsən varəstə olmaq, bəşəriyyət haqqında niyyəti-aliyə bəsləmək.

Dördüncü maddə- Məhəbbət, məvəddət, rəhmdillik kimi fəzailli- cəmilə ilə xülqlənməkdir. Yalnız bəşəriyyət deyil, bilümum canlı heyvanlara belə şəfqət göstərməkdir.”

Qeyd olunan bu müddəalar fərdi və kollektiv əxlaqın təmsilçisi kimi fiziki və mənəvi komponentlərin düzgün əlaqələndirilməsinin uğurlu harmoniyası, praktik -real inikası olaraq meydana çıxmışdır.On maddədən ibarət:

1.Həyat şayani- hörmətdir. Kimsəni qətl etmə, nuri-həyatı söndürmə.

2. Oğurluq, qarət misilsiz əf ali- təcavüzkaranə ilə hüquqi-badə əl uzatma, səy və kəsb sahiblərinin zəghmətinin mükafatına nail olmağa kömək elə.

3. Mütləq nəzafət və təmizliyə diqqət etməklə həkimanə yaşa.

4. Sədaqətli ol, həqiqəti danma,haqq sözü qorxusuz söylə, fəqət hiddətli deyil, məhəbbətlə söylə ki, təvəccöhi-ümymiyyəni cəlb etsin.

5.Öz xəyalxanəndən saxta, əsilsiz, fitnəəngiz xəbərləri yaymaqla asayişi-ümumiyyəyi xələldar etməkdən çəkin.

6.And içmə.

7.Faydasız, latailat və müzəxrəfət ilə ömri- qiyamətdarını zaye etməyib daima calibi-mənfəət olan söz danış, əks saurətdə dilini saxla.

8.Tamhkar olma,həsəd etmə,əhibbanın xöşbəxtliyini göründə şad ol.

9.Qəlbini pislikdən təmizləyib kimsənin haqqında ədavət bəsləmə.Düşməninə qarşı məhəbbətkaranə rəftar et, bütün zihəyata şəfqət göstər.

10.Məsləksiz olma! Həqiqəti arayıb tapmağa səy et” - kimi Budda təsnifatı bütün Müqəddəs kitabların, dini qütblərin və cinahların seçmələridir. M.Hadi bu təsnifatı islam dini konstruksiyasının bəşərilik, insanlıq, bərabərlik amalında eyni niyyət və məfkurəideyasında birləşdirir. “Ruhu ərvahı-mələkutiyyə və qüdsiyyə ilə ruhlanmağı qeyrət etməlidir. Həqiqi nuraniyyət, həqiqi hürriyyət sırf məhəbbətdədir” - kimi fikirlərin “ hər biri bəşər tarixinin bütün dövrləri üçün gərəkli və heç zaman köhnəlməyən şərtləridir”. Ədib şərh etməyə çalışır ki, xalqlar, millətlər nə qədər fərqli və uzaq olsalarda bir- birinə etiqat və iman etdikləri Yaradanla baglıdır.

M.Hadi insanlarda ümumi bir məhəbbətin olmadığını, şərə uyduqlarını, müqəddəs kitabların, Tövrat və Quranın belə “insanlara ziyabəxş olmaması” kimi qarşılıqlı münasibətə ehtiva edir, dini abidələrin əqidələrini ifadə etməklə tolerant düşüncəyə sahib olduğunu göstərir. O, davranış və həyat tərzində təkamül etmək, bununlada yüksək mənəvi zirvəni fəth etmək üçün həqiqi hürriyyətin sırf məhəbbətdə olduğunu görür: “Yalnız başına yaşayan insan hər nə qədər iqtidarlı olursa-olsun, yenə axırda vəhşilərin məğlubu olur. Siz nə qədər Robinzonun həyatına qibtə edirsiniz də, buralarını mülahizə etdikcə tək ömürgüzar olmaqdan pək tez nifrət edəcəksiniz. İndi sizə xoş görünən o çardaqlar, o yataqlar fırtınalı havada küləyin qüvvətli, yağışın şiddəti ilə məhv olur gedər. Öylə isə rahatca yaşamaq üçün mədəniyyəti, cəmiyyəti seviniz...”

M.Hadinin dini baxış kontekstində : a) yüksək əxlaq, mədəniyyət; b)insan azadlığı və sevgisi ;c)mənəviyyat bolluğu olan cəmiyyətə sahib olmaq -birləşdirici əlamətlərin müxtəlif millətlərə necə paylanması elmlə, insanların bilimli olmasında dekonstruksiya edilir. M.Hadinin təxəyyülündə din insanların hər zaman İlahi qüvvəyə tərəddüdsüz inancı, güvən yeridir. Heç təsadüfi deyil ki, o, yaradıcılığında dini əxlaqa uyğun olmayan ideologiya və fəlsəfənin bəşəriyyətə verdiyi zərərləri, zülm və ədalətsizliklə mübarizə aparmağın yolunu Quranla birləşdirmiş və yazmışdır: “Rəhbərihəyat və irşadımız Seyyidi-aləm buyurur: “ Hər kəsin dünkü günü ilə bugünkü günü müsavi olsa, o kəs ziyan etmişlərdəndir”.

Bəli, insana günü-gündən tərəqqi etmək gərəkdir və yenə əfəndimiz buyurur:“Rəbbi zədna elmən əlayə. Yəni, ey mənim mürəbbi vücudum, elm və bilik cəhətincə məni artır, elmimi əfzun eylə”-xüsusunda batil sistemləri araşdıraraq hər cür zərərli düşüncələri elmi və ideoloji səviyyədə məhv etməyə çalışmışdır. Maraqlı faktır ki, M.Hadinin üslub və müraciətini Quranla birləşdirərək üstün əxlaq normasını təqdim etməsi təbliğdə qavramın daha səmərəli nəticələr sərgiləməsini tamamlayır. Quran əxlaqından qaynaqlanan üslub üstün və fəzilətli xüsusiyyətləri ilə dərhal diqqəti çəkir, nəticədə Allahın muqəddəs kəlamları ilə insanlara ciddi təsir edə bilir. Bu təqdimdə Avropa alimlərinin fikirlərinə, yaşam tərzinə, qeyri -din numayəndələrinin Allaha qovuşacaq qədər mənəvi təkamülü, elm və maariflə əlaqələndirilməsi, bütün bu xüsusiyyətlərin Quranda bildirilən müsbət əxlaqi üstün normalara salınması tolerant ənənənin sənətkarlıqla davamını şərtləndirir. “Həyat” qəzetinin 31 may 1906-cı il, 117-ci nömrəsində dərc olunan “Qiraətxanə darül-mərifətdir” adlı yazıda M.Hadi yazıçı, siyasi nəzəriyyəçi, ABŞ-ın banilərindən biri Bencamin Franklinə istinadən qeyd edir ki, əxlaqlı olmaq, yaxşı biliyə yiyələnmək Quran əxlaqını təbliğ etməkdə ən təsirli yollardan biridir: “Məkarimi-əxlaq kəsb etməyin yolu on iki fəzliyyətə vabəstədir. Franklin cənablarının göstərdiyi fəzailin bir kaçını qareyini- giramə ərz edəliM.İştə təqiri-fəziləti-əxlaq:a)Sükut, yəni bihudə mükalimə və müzakirədən ictinab edib ya özünə, ya başqalarına fayda verən sözləri söyləyiniz; b)Çalışmaq və əməl: vaxtı zaye qılmayıb həmişə mənfəətli şeylərlə işiğal ediniz və hər bir lüzumsuz işdən, əməldən sakınınız; c) Təvazö və məhviyyət- həqiqətən aqil və fazil olanları təqlid ediniz; d)Sükut və istirahət:nə malayəni şeylər və nə də hadisati-adiyə və ya naqabil tövqi-vüquatilə təşvişi- zehn etməyiniz”.

M.Hadinin şərhlərində insan qarşı-qarşıya qoyulmur, hər bir dində, islam, xristian və digər mədəniyyətlərdə əxlaq və kültürün maarif və elmlə,savadın artması ilə təkmilləşdiyi tolerant yanaşmada vurğulanır. Qurani- Kərim bütün insanların dinindən, cinsindən, irqindən asılı olmayaraq bərabər olduğunu elan etdiyi halda, elmli, bilikli insanları xüsusiləşdirdiyini bəyan edir, bununda tək yolunun elmdə olduğunu qeyd edir:“İçərisində yaşadığımız dövri- tərəqqi və təməddünün icabat və istəklərindən biri də qiraətxanalar, əncüməni -maarifdir. Həqiqəti düşünəcək, mülahizə qılacaq olursaq, qiraətxananın insan üçün nə qədər mənfəətli və nə qədər faydalı bir iş olduğunu təsmim edəriz, zənn edirəM.İnsanın bilmədiyini bildirən, öyrənmədiyiniu öyrədən, ağıl, fikir, vicdanını ziyalandıran işbu əncüməni-maarif olan qiraətxanalardır. Əvət, bu həqiqi,bu parlaq mətləbi kimsə inkar edəməz və inkara haqqı da yoxdur. Əfəndimz Seyyidi-kainat buyurmuşdur ki: Elm və biliyi beşikdən ağuşi -məzarə düşənəcən axtarınız, tələb ediniz” (“Qiraətxanə darül- mərifətdir”).

M.Hadi mədəniyyətin təşəkkülündə mənəvi dəyərlərlə elmi öndə tutur, Quranın ilk ayəsində “iqra” “oxu ”, söz formasının hər bir insana elm almasının nə qədər vacibliyini, elmin dərəcəsini ibadətdən üstünlüyünü, “Sual ediniz, öyrəniniz əhli-elmdən hərgah siz bilməyən olsanız” (Qiraətxanə darülmərifətdir”) ayəsi ilə bilmədiyini bilənlərdən sual etməli olduğunu açıqlayır. Ədib Müqəddəs kitabın buyurduqlarını qeyri-müsəlman olan din xadiminin əməllərində,elmin inkişafının cəmiyyətin tərəqqisində əsas amil olaraq görərək islahatlar aparmasını alqışlayır.Kəlküttədə fars dilində nəşr olunan, “Həblül-mətin” cəridəsindən iqtibas olunan, “Füyuzat” jurnalının 26 noyabr 1906-cı il,3 -cü nömrəsində dərc olunmuş “Almaniyada darül-məlulin” məqaləsi bu qəbildəndir.“Mətbuatın, elm və mədəniyyətin faydası, texnika, azadlıq hərəkatı, yeni nəslin tərbiyəsi, qadın azadlığı, dünyəvi elmlərin kəşf və xariqələri, vətənin tərəqqisi, cəhalətdən xilas olmaq, mədəniyyət səviyyəsini yüksəltmək, insani hisslərin müqəddəsliyi” və s. aparıcı olan M.Hadi yaradıcılığında bu yazı tolerant ənənənin davamı kimi də diqqəti cəlb edir. Xristian dininin hakim olduğu Avropada Almaniya, Fransa, Isveç, Norveçdə əlil, fiziki qüsurlu olan insanlara göstərilən qayğı, onların müalicəsi və təhsilli, sənət, peşə vərdişlərinə yiyələnmək üçün aparılan islahatlar, insan dəyərini yüksək tutulması yönündən -“əlil tifilləri həm cəhalət, həm də istehzadan xilas etmək üçün onların hal və istiqballarının təminatının sərfi-himmət etmək ən əhəmiyyətlilərindəndir” -kimi qabardılır.M.Hadi insanın cəmiyyətdə yeri, bəşəriyyətdə insan bərabərliyi, faydalı insan yetişdirməyin yollarına örnək olacaq bu islahatları dəstəkləyərək “Kopenhaqen şəhərində Knudnnerin nam bir keşişin hümməti ilə vücuda gətrilən” əlil üşaqlar üçün nəzərdə tutulan, onların müalicəsi, təhsili və sənət emalatxanaları ilə təhciz olunan böyük məkanın faydalı cəhətlərini açıqlayır, nəticədə bu şagirdlərin kimsəyə möhtac olmadan gələcəkdə “öz kəsbi-məişətinə məşğul və bu sahədə kamali-rahət və səadətlə yaşamaqda” olduğunun məlumatını verir. “Keçəlim bunların üsuli- təlimlərinə... bu darül-məlulinin tədavi şöbəsində son dərəcə diqqət ilə tədavi və müalicə ediyorlar.- Hənuz məktəbin başqa siniflərinə daxil olmazdan əvvəl şu xəstə cocuq məktəb xəstəxanasında şəfayabi-səhhət olana qədər yatıyor.Şəfayab olduğu kibi təlimi sinfə daxil olur... Burada üsuli tərbiyə iki qismə ayrılmışdır.Məmafih şu məkatibdə təyin olunmuş dərslərdən əlavə bir para əl işləri də öyrədilməkdədir. İştə şu məlul tifillər nə vaxt ikmali-təhsil etdilər isə özlərinin meyl və iqtidarları müqtəzasınca emalatxana və sənətgahlara daxil olaraq işə məşğul olmaqdadırlar. Məsələn: dülgərlik, çəkməçilik, şəbəkəsazlıq, cildsazlıq,başqa və başqa sənətlərlə təmini-məişət ediyorlar”. Nəticədə bu üsul İslam dini mətnlərində sağlam cəmiyyət qurmağın vacibliyini əks etdirən ayələrlə, islahatlarla eyniləşir: “Məmafih 1876-cı sənədə erkək cocuqlarla bərabər məlulə qızlar da şu məktəbə qəbul olunmuşlardır.” “Həyat” qəzetinin 23, 26, 28 aprel 1906-cı il, 88, 90, 92 nömrəsində çap olunan “Dəyanəti-islamiyyənin nisvanə bəxş etdiyi hüquqa bir nəzər” məqaləsində M.Hadi bu tədbiri Quranla eyniləşdirir. (Qurani-Kərimdə qadın, onun aliliyi, hüqüqları, ananın müqəddəsliyi öncüllərdəndir). Qadının cəmiyyətdə əvəz olunmaz rolunda elmin öndə olmasını vurğulayır, müqəddəs kitabda cins fərqi qoymadan, hər bir kəsin təhsil almasını ön planda tutur və Quran ayələri ilə şərh edir: “Zikr” elm mənasında olanda böylən olur: “Ey xatunlar, öyrənin bilin”. Gələlim ayədəki “ayatüllah” cümləsinə. Bundan məfhum və məlum olan bu əmri-şəriyə və vəzayifi-diniyyədir, sələt, sovm, sədəqə kimi. Mənası: “Ey xatunlar, öyrənin vəzayifişəriyəyə”. Bu sözdən aşkar oluyor ki, ülumi-şəriyəyi bilmək, təhsil etmək fərzdir və adabi-islamiyyəyi bilmək lazımdır. Çünki abad və şüruti-ibadətdən xəbərdar olmayan xatunun ibadəti “naqis deyil, batil və fasid olacağı gün kimi aydın bir həqiqətdir”-deyib. Bəs hər xatuna vəzayifi-şəriyəyi öyrənib bilmək ən əhəmm və ən şayani-etina bir məsələdir.” Nəhayət belə bir nəticəyə gəlmək olar ki, M.Hadi yaradıcılığında tolerantlıq ənənəsi azad insan konsepsiyasına əsaslanır, ədib yüksək əxlaq, mədəniyyət, hürriyyət və sevgi, mənəviyyat bolluğu olan cəmiyyətə sahib olmağın yollarını başqa dinlərə istinadən açıqlamaqla yanaşı, köklü özül kimi Qurana istinad edir. M.Hadi bu birləşdirici əlamətlərin digər millətlərdə, müxtəlif dinlərdə təzahürünü ayrı seçkilik salmadan Müqəddəs kitabda cəmləyir, bəşərilik, insanlıq, bərabərlik amalında eyni niyyət və məfkurə- ideyasında birləşdirir.

Səadət VAHABOVA,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yeni dövr Azərbaycan Ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent